http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 11 (1629) 16 iyun 2016 - cı il Qiymәti 50 qəpik

# Prezident İlham Əliyev Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin ikinci dərəcəli yeni sərhəd gözətçi gəmisi ilə tanış olub

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində tikintisi başa çatdırılan ikinci dərəcəli sərhəd gözətçi gəmisi və yeni istifadəyə verilən müasir itisürətli qayıqlarla tanış olub.

Dövlət Sərhəd Xidmətinin rəisi–Sərhəd Qoşunlarının komandanı, general-polkovnik Elçin Quliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı İlham Əliyev əvvəlcə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin fəaliyyətini əks etdirən filmə baxdı, onların texniki göstəriciləri ilə tanış oldu.

Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı Sərəncamla təsdiq olunmuş "Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı" çərçivəsində Bakının Türkan qəsəbəsində Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin yeni bazası inşa edilib. Xidmətin Sahil Mühafizəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, sərhədçi dənizçilərin peşəkarlıq səviyyəsinin artırılması xidməti-döyüş fəaliyyətinin nəticələrinə bilavasitə müsbət təsir göstərib. Şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsinə, ekstremal şəraitdə peşə vərdişlərinin yüksək səviyyədə olmasına xidmət edən müxtəlif mövzularda döyüş və taktiki təlimlərin keçirilməsi Dövlət Sərhəd Xidmətində artıq ənənə halı alıb.

Dövlətimizin başçısı ikinci dərəcəli sərhəd gözətçi gəmisində yaradılan şəraitlə tanış olub...



## Azərbaycan Tibb Universitetinin rəhbərliyi professor-müəllim heyətini, bütün əməkdaşları və tələbələri




## münasibətilə təbrik edir!

BU SAYIMIZDA

Xalqımızın tarixi xilas günü 2



Başkent Universitetinin rektoru ATU-da qonaq oldu 3

Azərbaycan Tibb Universitetində Milli Qurtuluş Günü qeyd edildi



Həkim-neonatoloqların növbəti seminarı 5

Yay imtahan sessiyasına start verildi 4

Türkdilli Dövlətlərin Transplantasiya Cəmiyyətinin konqresi keçirilib 5



Üç qat Avropa çempionu Rüstəm İmanzadə Tədris Cərrahiyyə Klinikasında müalicə alır 6



**1993-cü il müstəqil dövlətçilik tariximizdə, Azərbaycan ictimai-siyasi fikir tarixində dönüş ili kimi zamanın yaddaş kitabına yazıldı. 1997-ci il iyunun 27-də Milli Məclis bu tarixə milli bayram statusu verilməsi haqda qərar qəbul edib. Bu ümummilli bayram Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixinə öz möhürünü vurmuş ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə bağlıdır. Heydər Əliyev Azərbaycanda hakimiyyətə ikinci dəfə 23 il əvvəl-1993-cü ilin iyununda gəlib.**



# Xalqımızın tarixi xilas günü

Bu qayıdış Azərbaycan xalqının tələbi, o zamankı iqtidarın və digər ictimai-siyasi qüvvələrin təkid və xahişləri əsasında baş verib. Bu hadisələrə 23 illik bir zaman kəsiyindən baxdıqda görürük ki, 15 iyun 1993-cü il tarixi Azərbaycan dövlətini parçalanmadan qurtarması, habelə onun dinamik inkişafının, sürətli yüksəlişinin əsasının qoyulduğu dövr idi. Bu tarixin araşdırılması ölkəmizin gə-ləcəyi üçün həyati əhəmiyyət kəsb edir. Azərbaycanın Milli Qurtuluşu ilə bağlı dövlətçiliyimizin gələcək mövcudluğunun təməl daşı qoyuldu. Ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini bir daha yaşamaq aqibətindən qurtuldu. Milli Qurtuluş yeni, yüksək intibaha açılan qapı kimi tariximizi şərəfləndirdi. Ulu öndərin müdrikliyi, qətiyyəti və dövlətçilik bacarığı sayəsində Azərbaycan təlatümlərdən, sarsıntılardan uğurla çıxaraq, gələcəyə inamla baxan bir dövlətə çevrildi.

Böyük zəka sahibi Heydər Əliyev özünün unikal fəaliyyəti, əzəməti və qüdrəti ilə 1993-cü ilin iyununda bir daha sübut etdi ki, yaşadığı dövründən və düşdüyü mühitdən asılı olmayaraq tarixin əsl yaradıcısı məhz nəhəng şəxsiyyətlərdir. Onun tarixi qayıdışı obyektiv zəruriyyət, sosial sifariş, xalqın istək və arzularının ifadəsi idi. Artıq 1993-cü ildən 23 il ötür. Aradan keçən bu illər yalnız sözügedən qayıdışa bəslənən ümidlərin özünü doğrultması ilə yadda qalmadı, həm də Azərbaycanın gələcək inkişafının etibarlı bünövrəsinin təməlini qoydu. Ulu öndər tarixi qayıdışı ilə xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirdi. Eyni zamanda Azərbaycanın indiki sürətli inkişafının strategiyası, bütün sahələrdə həyata keçirilən köklü islahatlar da öz başlanğıcını Milli Qurtuluşdan götürdü.

1993-cü ildən sonra cərəyan edən ictimai-siyasi, iqtisadi proseslər, bütün sahələrdə inkişafa doğru dönüş yaradılması həqiqətən də ölkəmizə milli mənafelərimizi əldə rəhbər tutan, xarizmatik və qətiyyətli liderin, əsl siyasətçinin rəhbərlik etməsindən xəbər verirdi. O siyasiyyətçidən ki, üzləşdiyi çətinliklərə, manelərə, dövlət çevrilişi cəhdlərinə baxmayaraq, Azərbaycanı vətəndaş müharibəsindən qurtardı. Heydər Əliyevin prezident seçilməsi isə Azərbaycanda tamamilə yeni bir ictimai- siyasi münasibətlər sisteminin bərqərar edilməsinə, nəhayət, ümumxalq maraqlarının gerçəkləşməsinə səbəb oldu, xalqın özünə inamını, sabaha nikbin baxışlarını bərpa etdi, dövlətçiliyimizin əsasını təmin edən ictimai-siyasi sabitliyin əsasını qoydu. Azərbaycan yalnız Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra geosiyasi imkanlarını gerçəkləşdirə bildi. Ümummilli lider Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycan beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsin-dən xilas oldu, dünya dövlətləri arasında özünə layiqli yer qazandı, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı, sivil və hüquqi dövlət quruculuğunun əsası qoyuldu.

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamlı irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin uzaqgörən və zəngin siyasi fəaliyyəti sayəsində mümkün oldu. O, xalqa əvəzsiz xidmətləri ilə çağdaş tariximizdə əbədilik qazandı. Ölkəmizin inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin daha da möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir. Zəmanəmizin ən görkəmli siyasi xadimi öz uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə Azərbaycanın yeni tarixində dövlətçiliyimizin möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədi olmasına verdiyi töhvələrə görə xalqımızın ümummilli liderinə çevrildi.

Bu böyük şəxsiyyətin dərin zəkasının sayəsində ölkəmiz demokratik, hüquqi inkişaf mövqelərinə çıxdı, qüdrətli şəxsiyyətin işıqlı ideyaları müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün əzəmətli bir təməl oldu. Heydər Əliyev diplomatiyası Azərbaycanı tarixən çox qısa müddət ərzində bütün dünyaya tanıtdı, onun beynəlxalq nüfuz dairəsininin daha da genişlənməsini təmin etdi.

Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli varisi – Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. O, ilk növbədə ulu öndərin başladığı neft strategiyasını uğurla davam etdirir. İlham Əliyevin əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu respublika iqtisadiyyatında böyük uğurlar əldə edib, ölkəmizin günü- gündən çiçəklənməsinə səbəb olub. Dövlətimizin başçısı iqtisadi inkişaf strategiyasının ardıcıl şəkildə və yüksək dinamizimlə həyata keçirilməsinə möhkəm, dönməz zəmin formalaşdırıb. Bu gün Azərbaycan xalqı İlham Əliyevi ölkədə baş verən intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona güvənir. Çünki xalq öz həyatında baş vermiş böyük dəyişikliklərin, respublikamızı parlaq sabahına doğru yaxınlaşdıran siyasi kursun əhəmiyyətini yaxşı dərk edir və bu siyasəti birmənalı şəkildə dəstəkləyir.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə tarixi qayıdışından 23 il keçsə də, həmin taleyüklü məqam qədirbilən xalqımız tərəfindən daim xatırlanır, ulu öndərin vətən və xalq qarşısındakı misilsiz xidmətləri ehtiramla yad olunur. Hər il Azərbaycan dövlətçiliyinin və millətinin tarixi xilas günü ölkəmizin hər yerində ümummilli bayramı kimi qeyd edilir...

**Mənsur ƏLƏKBƏRLİ**

---

**Azərbaycanın baş toksikoloqu, ATU-nun xarici tələbələrlə iş üzrə dekanı İsmayıl Əfəndiyev bu günlərdə Sankt-Peterburq şəhərində keçirilən Ümumrusiya elmi-praktik konfransında iştirak edib.**

# Baş toksikoloq: “Azərbaycanda əsasən narkotiklərlə zəhərlənmə hallarına rast gəlinir”




“Müasir toksikoloji narkologiya” adlı konfrans narkotikdən zəhərlənmələrə həsr olunub. İsmayıl Əfəndiyevin sözlərinə görə, narkotikdən zəhərlənmə bütün dünya üçün aktual bir problemdir. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, təkcə opiat tərkibli narkotiklərdən hər il 70 min insan dünyasını dəyişir. 15 milyon insan isə hazırda narkotik asılılığından müalicə alır: “Konfransda Azərbaycanda bu sahədə mövcud vəziyyətlə bağlı məruzəylə çıxış etdik və digər ölkələrlə müqayisə apardıq. Məsələn, hazırda Rusiyada əsas problem “metadon” və “butirad” kimi narkotiklərlə zəhərlənmədir. Hələ ki, Azərbaycan üçün belə bir problem yoxdur. Avropa ölkələri üçün isə sintetik narkotiklərdən zəhərlənmə böyük bir problemdir. Onlardakı kokain, eksetezite narkotikləridir. Bütün toksikoloji mərkəzlər üçün yeni bir problem üzə çıxıb ki, bunlara da yeni “dizayner narkotikləri” deyilir. “Dizayner narkotik” həmin sintetik narkotikin başqa bir adla insanlara satılması deməkdir. Məsələn, hamam duzu və ya qəlyan tütünü kimi və s”.

İ. Əfəndiyev bildirdi ki, tərkibində narkotik maddələr olan 400-ə yaxın kimyəvi məhsul aşkarlanıb: “Ən təhlükəli olanı sintetik kannabis - yəni nəşəyə bənzər bir maddələrdir və yeni qrupdur ki, bunlara da “kationlar” deyilir. Biz buna hazır olmalıyıq. Hazırda bu, Avropa və Qərb ölkələri üçün böyük problemdir, həddindən artıq çox yayılıb. İnternetdə həmin maddələr satılır, poçt vasitəsilə qeyri-leqal şəkildə ölkəyə çatdırılır”.

Dekanın sözlərinə görə, Azərbaycanda əsasən ənənəvi narkotiklərə zəhərlənmə hallarına rast gəlinir: “Bunlar ilk növbədə xaşxaşdan alınan tiryək və sintetik kimyəvi yolla ondan alınan heroin kimi narkotiklərdən zəhərlənmələrdir. Bu halda zəhərlənmə çox ağır keçir, asılılıq da tez yaranır. Hətta heroindən 1-2 dəfə istifadə etdikdən sonra insanda həm fiziki, həm də psixoloji asılılıq yaranır ki, bundan da insan özü qurtula bilməz. Getdikcə doza çoxalır və bədənin narkotikə tələbatı artır. Axırda o həddə çatır ki, həmin şəxsdə kəskin zəhərlənmə olur, komaya düşür və bu peredozla xəstəxanaya yerləşdirilməli olur.”

Müsahibimizin fikrincə, ən böyük problemlərdən biri insanların xarici ölkələrdən narkotik maddələri öz mədə traktında Azərbaycana keçirməyə çalışmasıdır: “Bu yaxınlarda belə bir hadisəylə rastlaşdıq. Bir xəstə İran sərhədini keçərkən, Biləsuvar rayonunda qəflətən huşunu itirib, komaya düşmüşdü. “San” Aviasiya yolu ilə Toksikologiya Mərkəzinə gətirilib və onun mədə-bağırsaq traktından 35 ədəd xüsusi sellofana bükülmüş heroin konteynerlər çıxarılıb. Bu xəstə müalicədən sonra ayıldı və Hüquq Mühafizə Orqanlarına təhvil verildi”.

İsmayıl Əfəndiyev təəssüflə qeyd etdi ki, xəstələr arasında məktəblilərə də rast gəlinir: “Bu məsələlərdə ilk növbədə valideynlər diqqətli olmalıdırlar. Əgər uşaq özünü qeyri-adekvat aparırsa, yuxuludursa, göz bəbəkləri daralıbsa, sual verdikdə çox ləng cavab verirsə, nəfəsində nəsə dəyişiklik varsa, o halda təcili şəkildə həkimə müraciət etmək lazımdır. Çünki nə qədər tez bunun üstünə düşülərsə, o qədər tez sağalma ehtimalı artır”.

Həkim bildirib ki, narkotik istifadəçilərinin müalicəsi bütün dünyada çox böyük bir problemdir: “Biz toksikoloqlar əsasən zəhərlənməni qandan təmizləyir və fiziki asılılığı müalicə edə bilirik. Lakin xəstəni psixoloji asılılıqdan azad etmək psixoloqların işidir. Eyni zamanda, xroniki narkomanlar üçün hazırda dövlət tərəfindən metadon proqramı həyata keçirilir. Onlar rəsmi qeydiyyata düşür və hər gün pulsuz metadon maddəsi qəbul edirlər. Bu müalicə növü sayılmır, sadəcə vurulan ziyanın azalması - yəni “harm redaction”-: təmin edir”.

İ.Əfəndiyev əlavə edib ki, bu proqram üzrə ölkəmizdə yüzlərlə insan qeydiyyatdadır.

**ATU-nun mətbuat xidməti**

**İyunun 14-də Azərbaycan Tibb Universitetində Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirildi.**

# Milli Qurtuluş Günü qeyd edildi



Azərbaycan Tibb Universiteti və Nəsimi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə baş tutan tədbiri giriş sözü ilə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli toplantı iştirakçılarını bayram münasibəti ilə təbrik etdi.

Bundan sonra Azərbaycan Dövlət Himni səsləndirildi.

15 iyunun böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bir gün olduğunu bildirən rektor ümummilli liderimiz Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmasını Azərbaycanın çoxəsrlik tarixində taleyüklü, möhtəşəm siyasi hadisə kimi dəyərləndirdi: "Müstəqil Azərbaycanımızın çox parlaq, sevindirici səhifələri ilə yanaşı, müasir həyatımızda çətin, təhlükəli məqamlar da yaşamışıq. 1993-cü ilin iyun ayını Azərbaycanın müstəqilliyi, dövlətçiliyi tarixində ən ağır aylardan biri hesab etmək olar. Çünki o zaman iqtidarın iflic vəziyyətdə olması, hərbi qruplaşmalar, xarici ölkələrdən maliyyələşən radikal qurumların fəallaşması nəticəsində ölkəmiz artıq parçalamaq təhlükəsi ilə üzləşmişdi, çətinliklə qazandığımız müstəqilliyimiz böyük risk altında idi. Hər gün bir-birindən həyəcanlı xəbərlər gəlirdi. Şimalda, cənubda separatçılıq meyllərinin güclənməsi, super güclərin təsiri və bütün bölgələrdə cinayətkar qrupların meydana çıxması vətəndaş müharibəsinə gətirib çıxarır, qardaş qırğınına yol açırdı. İqtidarda olan qüvvələrin ölkədəki vəziyyətə nəzarəti itirdiyi bir zamanda bütün ziyalıların, bütövlükdə xalqımızın baxışları milli liderimiz Heydər Əliyevə yönəlmişdi".

Ulu Öndərin xalqın təkidi ilə Bakıya dönüşü, böyük siyasətə qayıdışı gününü – 15 iyunu Azərbaycanımızın, xalqımızın xilas günü adlandıran rektor qeyd etdi ki, bu zalda əyləşən gənclərimiz bizdən fərqli olaraq o tarixi özləri yaşamayıblar, kitablardan oxuyublar. Bizim nəsil isə o günləri gözü ilə görüb: "Bakının üstündə uçan hərbi vertolyotları, günorta vaxtlarında eşidilən atəş səslərini yaxşı xatırlayırıq. Bəlkə də az adam inanardı ki, bir neçə ildən sonra Ulu Öndərimizin rəhbərliyi altında o qədər də böyük olmayan ölkəmiz belə böyük uğurlara imza atacaq. Mən deyərdim ki, həqiqətən də, Azərbaycan Heydər Əliyevin simasında böyük bir xilaskarını tapdı".

Heydər Əliyevin dünyada barmaqla sayılan siyasətçilərdən olduğunu xatırladan rektor bildirdi ki, məhz onun ikinci dəfə hakimiyyətə gəlişi Azərbaycanın bütün sahələr üzrə inkişafına gətirib çıxarmışdır: "Sizin hamınızın yadındadır ki, Ulu Öndər inkişaf etmiş ölkələrin başçıları ilə müqavilələr bağlayırdı. Bütün səfərlərində Dağlıq Qarabağ problemini qaldırır, dünyaya həqiqəti çatdırırdı. Çünki dövlətlərin çoxu Azərbaycanda olan real vəziyyətdən bixəbər idilər. Bu danışıqlar, bu inkişaf, nəhayət, əsrin müqaviləsinin imzalanması ilə nəticələndi. Heydər Əliyev tərəfindən aparılan uzaqgörən siyasət nəticəsində Azərbaycan öz



parlaq inkişaf yoluna qədəm qoydu".

Rektor qeyd etdi ki, Heydər Əliyev irsi bu gün də öyrənilir. Bu, bir xoşbəxtlikdir ki, ümummilli liderimizin yolunu möhtərəm prezidentimiz İlham Əliyev cənabları uğurla davam etdirir: "Azərbaycan dünyanın ən nüfuzlu xəbər agentliklərinin diqqət mərkəzindədir. Elə bir iqtisadi, siyasi, idman və sosial tədbir yoxdur ki, Azərbaycan orada qabaqcıl səviyyədə təmsil olunmasın. Ölkəmiz "Formula 1" yarışlarının keçirildiyi məkana çevrilməklə yenidən dünyanın gündəmindədir. Bütün bunlar 15 iyundan başlayan inkişafın uğurlu davamıdır. 15 iyun Azərbaycan tarixində Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasının başlandığı gündür".

Daha sonra Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov çıxış edərək bildirdi ki, həyata keçirilən uğurlu daxili və xarici siyasət, xalqın milli-mənəvi dəyərlərindən çıxış etməklə görülən işlər Heydər Əliyevi xalqımızın milli liderinə çevirməklə bərabər, Azərbaycanı da dünyanın qabaqcıl dövlətləri sırasına yüksəltdi.

A.Əsgərov həmçinin müasir dövrümüzdə Ulu Öndər Heydər Əliyevin siyasi kursunun Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini söylədi: "Bu gün Azərbaycan dünya ölkələri ilə humanitar sahədə əməkdaşlığını yüksək şəkildə davam etdirir. Dünyada tolerantlıq və multikulturalizm dəyərləri ilə tanınan Azərbaycan bu gün həm də idman ölkəsidir".

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov tədbir təşkilatçılarına təşəkkürünü çatdıraraq hər kəsin bayramını təbrik etdi: "Çox sevindirici haldır ki, mən bu gün belə bir möhtəşəm tədbirdə çıxış edirəm. Ulu Öndər Azərbaycanda iki dəfə hakimiyyətə gəlib. Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə ölkəmizdə çox ağır iqtisadi şərait hökm sürürdü. Onun hakimiyyətə qayıdışından sonra ölkəmiz hər sahədə sürətlə inkişaf etməyə başladı."

Daha sonra ATU-nun I daxili xəstəliklər və reanimatologiya kafedrasının müdiri, professor İsfəndiyar İsmayılov çıxış edərək, 15 iyun Milli Qurtuluş Gününü həm dövlətimizin, həm də xalqımızın xilas tarixi kimi səciyyələndirdi. Həmin günü ölkəmizin yeni inkişaf mərhələsinin başlanğıcı və istinad nöqtəsi adlandıraraq bildirdi ki, daxili çəkişmələr, vəzifə uğrunda mübarizə, dövlətə və hökumətə inamsızlıq, son nəticədə itaətsizlik vətəndaş müharibəsi təhlükəsi yaratmışdı: "Vətənimizi xilas etmək üçün reanimatoloqların dili ilə desək, "təməl həyat dəstəyi" tələb olunurdu. Yəni Azərbaycanın varlığını xilas etmək lazım idi. Belə dəstək Heydər Əliyevdən gəldi".

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasının hazırda möhtərəm prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla həyata keçirildiyini söyləyən professor Azərbaycanda inkişafın yüksələn xətt üzrə, əmin-amanlıq və sabitlik şəraitində getdiyini vurğuladı.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti, yeritdiyi müdrik daxili və xarici siyasət nəticəsində müstəqilliyimizin dönməz xarakter aldığı, dövlət quruculuğu, milli ordunun formalaşdırıldığı, beynəlxalq aləmdə Azərbaycanın demokratik imicinin artması sahəsində böyük işlər görüldüyü vurğulandı. Həmçinin Ulu Öndərin ideyalarının və siyasi xəttinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən və müstəqil Azərbaycan dövlətinin sürətli inkişafından söhbət açıldı.

Tədbir iştirakçılarına Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən video-çarx da nümayiş olundu.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Başkent Universitetinin rektoru ATU-da qonaq oldu

**Türkiyənin Başkent Universitetinin rektoru, professor Ali Haberal Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb. Görüş zamanı qonağa universitetin tarixi, fəaliyyəti, əldə etdiyi uğurlar və qarşıya qoyulan hədəflər barədə məlumat verilib.**



ATU-nun Azərbaycanda yeganə tibb təhsil müəssisəsi olduğunu bildirən rektor G.Gəraybəyli universitet üçün prioritet istiqamətlərdən birinin xarici tələbələrin sayının artırılması ilə əlaqədar olduğunu deyib. Onun sözlərinə görə, hazırda universitetin 7000-dən çox tələbəsi var və onlar tam beynəlxalq standartlara uyğun təhsil alır, yüksək şəraitli klinikalarda təcrübə keçirlər.

Professor G.Gəraybəyli ATU-nun beynəlxalq mübadilə proqramlarında aktiv iştirak etdiyini vurğulayıb. Qeyd olunub ki, ATU rezidentləri belə layihələr çərçivəsində dünyanın bir çox ali məktəbləri və klinikalarında, o cümlədən Başkent Universitetində rotasiya keçirlər. Bu, Tibb Universiteti ilə Başkent Universiteti arasındakı qarşılıqlı əməkdaşlıq sazişi nəticəsində mümkün olub. Gələcəkdə bu əlaqələri daha da genişləndirmək, Başkent Universitetinə daha çox rezident və mütəxəssis göndərməklə bağlı planlar mövcuddur.

Başkent Universitetinin rektoru, professor Ali Haberal da iki ali məktəb arasında əlaqələrin genişlənməsi, 2006-cı ildə bağlanmış əməkdaşlıq protokolunun yenilənməsindən məmnun olduğunu bildirib. Qeyd olunub ki, Tibb Universiteti və Başkent Universiteti arasındakı qarşılıqlı əməkdaşlıq müqaviləsi akademik heyətdə çalışan əməkdaşların və tələbələrin mübadiləsi, müştərək konfranslar, seminarlar və müxtəlif tədbirlərin təşkili və digər sahələrdə qarşılıqlı fəaliyyətə dair məsələləri özündə əks etdirir.

Görüş zamanı dünyada və Azərbaycanda orqan transplantasiyasının önəmindən söz açılıb. Vurğulanıb ki, Azərbaycanda böyrək köçürmə və qaraciyər köçürmə əməliyyatları ilə yanaşı, sümük iliyi transplantasiyası da uğurla aparılır. Bununla yanaşı, ölkəmizdə ilk dəfə süni ürək köçürülməsi əməliyyatı da uğurla həyata keçirilib. Ancaq bu sahədə ixtisaslaşan cərrahların yetişdirilməsi, bilik və bacarıqlarının artırılmasına ehtiyac var. Bu baxımdan, ATU əsasən bu sahədə rezidentlərin mübadilə proqramında iştirakına daha çox önəm verir.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova, Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Nuru Bayramov iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

Təbib



# Yay imtahan sessiyasına start verildi

**Azərbaycan Tibb Universitetində mayın 31-dən etibarən yay imtahan sessiyasına start verilib. İyunun 1-də universitetin Tədris Cərrahiyyə Klinikasının Treyninq Mərkəzində daxili xəstəliklər və mamalıq-ginekologiya kafedraları üzrə yekun dövlət attestasiyası keçirilib.**



İmtahan prosesinin gedişini universitetinin tədris işləri üzrə prorektor, professor Sabir Əliyev, Tədris Cərrahiyyə Klinikanın baş həkimi Asiman Həsənov, I müalicə-profilaktika fakültəsinin dekanı, professor Abuzər Qazıyev və ATU-nun tədris metodik və innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov izləyiblər. S.Əliyev tələbələrdən imtahan götürən müəllimlərlə görüşüb, onlara lazımi tövsiyələrini verib. Qeyd edək ki, ilk dəfə olaraq, Azərbaycan Tibb Universitetində imtahanlar yeni OSKİ (Obyektiv Strukturlaşdırılmış Klinik İmtahanı) üsulu ilə keçirilib.

Bu üsul tələbələrin bacarıqlarının qiymətləndirməsi üçün tətbiq olunur və digər imtahanlaran fərqlidir.

İyunun 2-i və 3-də isə stomatologiya və pediatriya fakültələri üzrə Dövlət Attestasiya imtahanları keçirilib. İki mərhələdə nəzərdə tutulan imtahanların birinci mərhələsi Dövlət İmtahan Komissiyası, ikinci mərhələsi isə ATU-nun Virtual Test Mərkəzində (VTM) test üsulu ilə həyata keçir.

Hər mərhələ 50 bal hüdudunda qiymətləndirilir.

Bacarıq imtahanlarına stomatologiya fakültəsindən 7 qrup qatılıb və imtahan yüksək səviyyədə baş tutub. Tələbələrin əksəriyyəti imtahandan yüksək bal toplayıblar.

Pediatriya fakültəsinin sonuncu kursunun 140 tələbəsinin hamısı imtahanda iştirak edib.

Pediatriya fakültəsinin dekanı, dosent Nəriman Nağıyevin sözlərinə görə, imtahan obyektiv şəkildə, müvəffəqiyyətlə keçib və qeyri kafi qiymət alan olmayıb.

İyunun 3-də isə müalicə-profilaktika fakültəsinin dövlət imtahanları keçirilib.



ATU-nun İnnovasiya şöbəsinin müdiri Akif Qurbanovun verdiyi məlumata görə, tələbələr yeni üslubda bacarıq imtahanları veriblər. Hər fənndən beş məntəqə, hər məntəqədə bir bacarıq icra etmək şərti ilə imtahan keçirilib: “İmtahanda həmçinin dekanlıqların rəhbərlikləri iştirak edib. II müalicə-profilaktika fakültəsi mama-ginekologiyadan, I müalicə-profilaktika fakültəsi isə daxili xəstəliklərdən bacarıq imtahanı verib”.

ATU-nun II müalicə-profilaktika fakültəsinin dekanı Taryel İsmayılov isə bildirib ki, imtahanlar mütəşəkkil keçirilib. Onun sözlərinə görə, hər bir fakültədə İmtahan Komissiyasının tərkibi beş nəfərdən ibarətdir: “Bundan əlavə, imtahan götürən müəllimlərimiz də var. Hər bir fənn üzrə imtahanda 12-15 müəllim iştirak edib. Bir fakültədə bütün fənlərin imtahanları dörd gün ərzində başa çatacaq. Bundan sonra tələbələr müvafiq fənlərdən test üsulu ilə imtahan verəcək. Sonda isə bacarıq imtahanlarından alınan ballarla, test üsulu ilə yazılmış nəzəri biliklər imtahanının nəticələri toplanacaq və yekun qiymət müəyyən ediləcək. Birinci mərhələnin bir hissəsi 1-4 iyunda keçirilib. Digər hissəsi 8-11 iyun arası baş tutacaq. İkinci mərhələ isə 14-18 iyun arası keçiriləcək”.

İyunun 8-də əczaçılıq fakültəsində də yekun Dövlət Attestasiya İmtahanları keçirilib.

Obyektiv və aşkarlıq şəraitində keçirilən buraxılış işlərinin müdafiəsini valideynlərin də izləməsi üçün imkan yaradılıb.



Fakültənin dekanı, professor Tahir Süleymanov qeyd edib ki, diplom buraxılış işlərinin müdafiəsinin qiymətləndirilməsi iki mərhələdə aparılır. Əvvəlcə kafedrada buraxılış işinin rəhbəri və rəyçilər tərəfindən ilkin qiymətləndirmə həyata keçirilir. Burada işlər maksimum 50 bala qədər qiymətləndirilir. İkinci mərhələdə isə dövlət attestasiya komissiyası üzvlərinin qarşısında diplom işinin məzmunu çatdırılır, onların sualları cavablandırılır və bunların əsasında qiymətləndirmə aparılır. Burada da tələbəyə maksimum 50 bal verilə bilər.



T.Süleymanovun sözlərinə görə, mərhələlərin hər birində qiymətləndirmə meyarları fərqlidir: “Birinci mərhələdə diplom işinin tərtibatı, tələbənin mövzunu mənimsəməsi, illüstrativ materiallar və s. kimi məsələlərə üstünlük verilirsə, ikinci mərhələdə attestasiya komissiyasının üzvlərinin qarşısında yerinə yetirilən təcrübələr qiymətləndirilir. Bu zaman tələbənin işi nə dərəcədə mənimsədiyinə, sualları hansı səviyyədə cavablandırmasına diqqət yetirilir”.

Dekan həmçinin onu da qeyd edib ki, imtahan zamanı tələbə işin məzmununu 7-8 dəqiqəlik çıxışı zamanı hərtərəfli izah edə bilməlidir: “Fakültədə buraxılış işləri 5 ixtisas üzrə yerinə yetirilir. Bunlar əczaçılıq işinin təşkili, əczaçılıq texnologiyası, farmakoqnoziya, əczaçılıq kimyası və toksikoloji kimya fənləridir. Yekun dövlət attestasiya komissiyasının tərkibinə göstərilən ixtisasların hər biri üzrə yüksək səviyyəli mütəxəssislər daxil edilib”.







Qeyd edək ki, bu il ATU-nun əczaçılıq fakültəsini 91 nəfər tələbə bitirməlidir. Onlardan 13-nün akademik borcu olduğundan, yekun dövlət attestasiyasına buraxılmayacaqlar. Rektorun əmrinə əsasən, hazırda 78 nəfər buraxılış işlərinin müdafiəsində iştirak edir. Buraxılış işlərinin müdafiəsinin hər gün 10 nəfər olmaqla, 8 gün ərzində aparılacağı planlaşdırılır.

Terapevtik stomatologiya üzrə imtahanlar da ATU-nun Stomatoloji Klinikasının Tədris Mərkəzində təşkil olunub. Burada tələbələrə öz bacarıqlarını nümayiş etdirmək üçün stomatoloji qurğular, xəstələr, mulyajlar, müxtəlif alətlər, cihazlar və plomb materialları, o cümlədən rentgen şəkilləri, dərmanlar və s. vasitələr təqdim olunub.

İmtahanların gedişinə müşahidə kameraları və imtahanlara nəzarət qrupunun əməkdaşları tərəfindən nəzarət olunub.

Qeyd edək ki, imtahanlar başlayandan prosesin gedişi universitetin rektoru, professor Gəray Gəraybəylinin diqqət mərkəzindədir. Rektor vaxtaşırı Dövlət İmtahan Komissiyasının üzvləri, nəzarətçilər, tələbələr ilə görüşüb, imtahanların gedişi ilə maraqlanaraq onların fikir və təkliflərini dinləyib, bununla bağlı müəllimlərə lazımi tapşırıqlarını veribdir. Gəray müəllim həmçinin imtahanları uğurla verən tələbələri təbrik edərək onlara gələcək karyeralarında uğurlar arzulayıb.

**Günel ASLANOVA**

# Ş.Bayramov: “OSKİ sisteminin tətbiqi zamanı heç bir problem qeydə alınmadı”

**◆ Mayın 31-dən etibarən Azərbaycan Tibb Universitetində yay imtahan sessiyasına start verilib. İmtahanın gedişi ilə əlaqədar Virtual Test Mərkəzinin direktoru, dosent Şahin Bayramovla görüşüb, onun fikirlərini öyrənmək qərarına gəldik.**



Şahin müəllimin “Təbib” qəzetinə açıqlamasına görə, əczaçılıq fakültəsinin IV, stomatologiya fakültəsinin V, müalicə-profilaktika və hərbi fakültələrin VI kurs tələbələri mayın 10-dan 27-dək buraxılış kurs imtahanlarında iştirak edib. Mayın 31-dən isə yay imtahan sessiyasının başladığını və bunun iyulun 4-dək davam edəcəyini (açıqlama iyunun 14-də alınıb – Q.A) bildirən Ş.Bayramov, həmin gün tibbi-profilaktika fakültəsindən başqa bütün fakültələrdə dövlət imtahanının götürüldüyünü qeyd edib. İmtahan prosesinin normal axarla keçdiyini, heç bir problemin qeydə alınmadığını və həmin günə qədər 15945 imtahan keçirildiyini diqqətimizə çatdırıb. Onlardan 212 nəfərin dövlət imtahanında iştirak etdiyini və əksəriyyətinin müvəffəqiyyət qazandığını, 43 tələbənin 17 baldan az topladığını bildirib.

Şahin müəllim həmçinin yeni sistem ilə imtahanların götürülməsi məsələsinə də toxunaraq əhəmiyyətindən söz açıb. Bildirib ki, beynəlxalq standartlara uyğun olan OSKİ (Obyektiv Strukturlaşmış Klinik İmtahan) kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin dəyərləndirilməsində bu il tətbiq olunub: “Tələbənin biliyi 100 ballıq şkala ilə dəyərləndirilir və tələbə bunun 50 balını gündəlik fəaliyyəti ilə qazanmalıdır. Kafedralarda tələbənin biliyi, bacarığı, davamiyyəti və sərbəst işləri müxtəlif ballarla dəyərləndirilir və bu, 50 baldan yuxarı olmamalı, tələbə qalan 50 balını isə imtahandan qazanmalıdır.

OSKİ sistemində tələbə konkret stiuasiyalar üzrə cavab verir və münsiflər heyəti yalnız tələbəni dinləyir və ya onun gördüyü situasiyanı heç bir müdaxilə etmədən izləyir. Tələbənin biliyi sonda münsiflər tərəfindən dəyərləndirilir. Məsələn, tələbə bilet çəkir və tutaq ki, orada ürəyin kardioqramması üzrə pasiyentin müayinə əsasında xəstəliyi müəyyənləşir.” – deyən dosent bu sistemin tələbələr tərəfindən yaxşı qarşılandığını qeyd etdi və tətbiq zamanı heç bir problemin qeyd olunmadığını vurğuladı.







**Qabil ABDULLAYEV**

# Həkim-neonatoloqların növbəti seminarı

Ayda bir dəfə olmaqla müxtəlif klinikaların neonatoloqları ATU-nun Tədris Cərrahiyyə Klinikasında bir araya gələrək təcrübə və bilik mübadiləsi, müəyyən sahələrdə qaranlıq qalan mövzular üzərində müzakirələr aparırlar.



Seminar respublikanın baş neonatoloqu Rüstəm Hüseynovun, ATU-nun Tədris Cərrahiyyə Klinikasının neonatologiya kafedrasının müdiri, professor Səfixan Həsənov və uzman Erkin Rəhimovun təşəbbüsü ilə keçirilib.

Seminarda Neonatologiya kafedrasının assistenti, t.ü.f.d. Sevinc Muxtarova “Su-elektrolit balans və disbalans” haqqında ətraflı çıxış edərək, 3 xəstə üzərində aparılan müayinə müzakirə olundu. Klinikanın rezidenti Nərgiz Süleymanzadə “Kasabach–Merritt sindrom” lu (KMS) körpə ilə bağlı, Baku Medikal Plazadan həkim Nərgiz Məmmədova və həkim oftalmoloq Rüxsarə Qurbanova “Erkən doğulan uşaqlarda ROP”, Caspian International Hospitaldan Aynur Bağırova isə “Fenilketonuria”-lı körpə və “Ağcaqayın şirəsi xəstəliyi” barədə geniş məruzə ilə çıxış ediblər.

Seminar iştirakçıları mövzulara dair maraqlı disskusiya da aparıblar.

# Türkdilli Dövlətlərin Transplantasiya Cəmiyyətinin konqresi keçirilib

**Bu konqresdə Amerika, Türkiyə, İngiltərə, İordaniya, Küveyt, Misir, Qazaxıstan və bir çox ölkələrdən 300-ə yaxın xarici qonaqlar gəlib.**

Tədbiri həyata keçirən isə Türkiyə Orqan Nəqli (TON) Dərnəyi və onun başkanı professor Mehmet Haberaldır. Konqresin keçirilməsində məqsəd daha çox cəmiyyətin, səhiyyə sistemində çalışan insanların, iş adamlarının transplantasiya problemlərinə diqqətini cəlb etməkdən ibarətdir.

Çünki transplantasiya sahəsi bütün dünyada, eləcə də Azərbaycanda inkişaf edir. ATU-nun Tədris Cərrahiyyə Klinikasının Transplantologiya şöbəsinin müdiri Ruslan Məmmədov bildirdi ki, məqsəd bu inkişafı daha da sürətləndirməkdir.



Konqresə gələn qonaqların Tədris Cərrahiyyə Klinikasına da marağı böyük olub. Kaliforniya Losanceles (UCLA) Universitetindən professor Hasan Yersiz, John Hopinks Xəstəxanasından hepatoloq, professor Ahmet Gürakan klinika ilə yaxından tanış oldular. Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Nuru Bayramov, Ruslan Məmmədov ATU-nun Tədris Cərrahiyyə Klinikası haqqında qonaqlara geniş məlumat verdi. Daha sonra isə qonaqlar klinikanın Tədris Treyninq Mərkəzində yerləşən mulyaj otaqlarında oldular. Qeyd olundu ki, bu otaqlar tələbə, həkim-rezidentlər üçün nəzərdə tutulmuş, dünya standartlarına uyğun ən müasir avadanlıqla təchiz olunmuş çoxfunksional bacarıq laboratoriyalarıdır.

# Moskvadan gələn nümayəndələr ATU-da qonaq oldu

**İyulun 2-də gün Moskva Elmi Tədqiqat Herontologiya İnstitutunun nümayəndələri Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının qonağı olub.**

Görüş zamanı tibb elmləri doktoru, professor Davud Pənahov qonaqlara klinikanın fəaliyyəti haqqında ətraflı məlumat verib. O, klinikada tələbələrin yüksək səviyyəli təhsil və təcrübə əldə etməsi üçün hər cür imkan yaradıldığını bildirib.

Qonaqlar klinikanın müxtəlif şöbələri, o cümlədən Tədris Treyninq Mərkəzindəki simulyasiya otaqları ilə tanış olublar. Mərkəzin şöbə müdiri, tibb elmlər namizədi, dosent Qorxmaz Əhmədov qeyd edib ki, simulyasiya otaqları tələbə, həkim-rezidentlər üçün nəzərdə tutulub və dünya standartlarına uyğun ən müasir avadanlıqla təchiz olunublar:



“Burada tələbələr və rezidentlərin biliklərini artırması üçün bacarıq laboratoriyaları fəaliyyət göstərir. MDB ölkələrində analoqu olmayan bacarıq laboratoriyalarında anatomik, funksional və mulyaj simulyatlar quraşdırılıb ki, bu da dünya standartları səviyyəsində gənc mütəxəssis hazırlığını təşkil etməyə imkan verir”.

Qeyd olunub ki, mərkəzdə ABŞ, İsrail və digər ölkələrin istehsalı olan robot-simulyatorlar, anatomik, laparoskopik və endoskopik virtual simulyatorlar, çoxsaylı pediatrik, ginekoloji, cərrahi, uroloji, BBQ (LOR), oftalmoloji, reanimatoloji və s. simulyatorlar və mulyajlar yerləşdirilib.

Qonaqlar ATU-nun Tədris Cərrahiyyə Klinikasında yaradılmış şəraitdən məmnunluqlarını bildiriblər.

**ATU-nun mətbuat xidməti**

Mütəxəssis sözü

# Qadınların ən çox əziyyət çəkdiyi xəstəliyin qarşısını necə almaq olar?

Bu günümüzdə qadınların ən çox rast gəldiyi xəstəliklərdən biri də uşaqlıq boynu xəstəliyidir. Xəstəliyin yaranma səbəbi və vaxtında qarşısının alınması üçün görülən praktik tədbirlər və müalicə yolları barədə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının həkimi, mama-ginekoloq Naza Qurbanovadan müsahibə almaq qərarına gəldik:

– Uşaqlıq boynu patologiyaları nəinki Azərbaycanda, ümumiyyətlə dünyada aktual olan bir mövzudur. Hazırda uşaqlıq boynunun bədxassəli xəstəliyi reproduktiv sistemdə rast gəlmə tezliyinə görə süd vəzindən sonra ikinci yerdə durur. Ancaq dünyada qadın ölümünə ən çox səbəb kimi birinci yerdə rast gəlinir.Təbii ki, bu xəstəlik birdən-birə yaranmır,bundan öncə xərçəngönü (displaziyalar)vəziyyətlər yaranır. Həmin xəstəliklərin vaxtında düzgün diaqnostikası və müalicə üsullarının düzgün seçilməsi demək olar ki, bu xəstəliyin qarşısını kifayət qədər almış olur.

**– Uşaqlıq boynu xəstəlikləri sırf xərçəngləmə bağlıdır?**

– Uşaqlıq boynunda ayrıca olaraq iltihabi-infeksion xəstəliklər yaranır, əsas bu xəstəliklər 3 qrupa ayrılır. Fon xəstəlikləri (eroziya, polip, leykoplagiya, papiloma və s.), xərçəngönü xəstəliklər (L-SİL, H-SİL) və uşaqlıq boynunun xərçəngi. Xəstəlik vaxtında aşkarlanmasa, düzgün diaqnostikası aparılmasa, daha ciddi problemlər yarada bilər. Fon xəstəlikləri ginekoloji baxış zamanı aşkarlamaq çətinlik törətmir, amma xərçəngönü xəstəlikləri (uşaqlıq boynunun displaziyaları) isə gözlə təyin etmək mümkün deyil. Onu deyim ki, yüngül dərəcəli displaziyalar, xərçəngönü vəziyyət varsa, bunun orta dərəcəyə keçməsi üçün haradasa 2 ilə qədər vaxt tələb olunur. 2 ildən 5 ilə qədər ikinci dərəcəli xərçəngönü vəziyyəti üçüncü dərəcəyə keçir. Statistikaya görə uşaqlıq boynunun xərçənginin inkişafı üçün 5 ildən 19 ilə kimi vaxt çəkir. Əgər ildə 1 dəfə profilaktik olaraq ginekoloq müayinəsindən və uşaqlıq boynu üçün nəzərdə tutulmuş skrininq müayinələrdən keçilsə, biz uşaqlıq boynu displaziyalarınıvaxtında aşkar edə bilərik. Bu halda bədxassəli şişlərin yaranma ehtimalını sıfıra endirmiş olarıq.

**- Xəstəliyin diaqnostikası necə aparılır?**

– Uşaqlıq boynunun skrininqi uşaqlıq boynu xərçənginin qarşısını almaq üçün aparılır. Bunun üçün ildə 1 dəfə qadınlar mütləq olaraq sitoloji (Pap-smear) müayinədən keçməlidirlər. Burada uşaqlıq boynundan yaxma götürülür və marfoloqlar tərəfindən dəyərləndirilir.İkinci müayinəyə uşaqlıq boynunun kolposkopik müayinəsi daxildir. Adətən birinci müayinə zamanı cavab müsbət çıxırsa, qadınlar düşünürlər ki, ikinci müayinəyə ehtiyac yoxdur. Ancaq bu doğru deyil. İldə bir dəfə kolposkopik müayinədən də keçilməlidir. Çünki uşaqlıq boynundan götürülmüş materialın sitoloji müayinəsi 100 faizlik müayinə metodu deyil. Bunun informativliyi 60 faizdir. Kolposkopik müayinə ilə birlikdə aparılarsa informativlik daha yüsək olar.Uşaqlıq boynu xəstəlikləri üçün ən dəqiq müayinə, uşaqlıq boynunun histoloji müayinəsidir. Ancaq histoloji müayinə üçün də bizə kolposkopik müayinə lazımdır. Çünki biz götürdüyümüz patoloji sahəni dəqiq bilməliyik. Kolposkopik müayinədən sonra əgər ehtiyac olarsa, papilloma virus skrininqi olunur. Lazım gəlsə, uşaqlıq boynundan biopsiya götürülüb histoloji müayinəyə göndərilir.

**- Kolposkopiya müayinəsi necə aparılır?**

– Kolposkopiya xüsusi optik cihazdır. Müayinə zamanı baxdığımız obyekti 30-40 dəfə böyüdə və problemi daha yaxşı incələyə bilirik.Uşaqlıq boynu patologiyalarının təyinində daha çox genişləndirilmiş kolposkopiyadan, sirkə turşusu və liqol məhlulundan istifadə olunur. Bu, tam ağrısız, qeyri invaziv müayinə metodudur.

**– Eroziya xəstəliyi haqqında nələri bilməliyik?**



– Eroziya qadınların ginekoloqa getdiyi zaman ən çox rastlaşdığı xəstəlikdir. Eroziyanı bəzən gözlə görmək mümkündür. Əksər hallarda digər xəstəliklərlə də səhv salmaq olar. Bunun üçün genişləndirilmiş kolposkopiya müayinəsi aparılır. Eroziya toxuma defektidir. Bu xəstəlik infeksiya, travma nəticəsində də yarana bilər və xoşxassəli xəstəliklər qrupuna daxildir. Nadir hallarda bədxassəli xəstəliyə çevrilə bilir. Əgər xanım ilkin müayinə nəticəsində eroziya xəstəliyi olduğunu bilibsə, müalicədən sonra xəstəlik olduğu kimi qalırsa, bu, deməli uşaqlıq boynunun eroziyası deyil. Bunun üçün artıq skrininq müayinələr aparılmalıdır ki, diaqnoz dəqiq olsun.

**– Uşaqlıq boynu xərçənginin yaranma səbəbi nədir?**

– Uşaqlıq boynu xərçənginin yaranma səbəbi papiloma virus infeksiyasıdır. Kaliforniya Universitetində uşaqlıq boynu xərçəngindən dünyasını dəyişən qadınlar üzərində araşdırma aparıblar. Araşdırma nəticəsində həmin qadınlarda papiloma virusu infeksiyasının həm onkogen, həm də qeyri-onkogen tipləri aşkar olunub. Ancaq papiloma virus infeksiyasına yoluxduqdan sonra uşaqlıq boynunda yastı kondiloma formalaşır. Biz güzgü müayinəsi zamanı təmiz uşaqlıq boynu görürük, lakin kolposkopiyada sınaq etdikdən sonra daha dəqiq nəticələr əldə edə bilirik.

**– Bu xəstəliklərin müalicəsi necə aparılır?**

– Uşaqlıq boynu,uşaqlıq yolu və vulva hissənin müalicəsi konservativ və operativ usullarla aparılır. Son zamanlar CO2 lazer əməliyyatların aparılmasına daha çox üstünlük verilir. CO2 lazerlə aparılan əməliyyatın üstünlüyü çapıq toxumanın əmələ gəlməməsi,əməliyyat müddətinin qısa olması, sağalma dövrünün qısa olması, hamilələrdə qız uşaqlarında, yaşlı qadınlarda müvəffəqiyyətlə istifadə olmasıdır. Bu əməliyyatdan 3 həftə sonra xəstə hamilə qala və ya doğuşunu təbii şəkildə başa çatdıra bilər. Əməliyyat 15-20 dəqiqə çəkir. Vulvada (xarici cinsiyyət orqanı) olan bütün xəstəliklərdə hətta xərçəngönü xəstəliklərdə belə CO2 lazer vasitəsilə orqansaxlayıcı əməliyyatlar icra olunur, vulvoektomiyaya ehtiyac olmur, bu ən azından xəstə üçün psixoloji rahatlıqdır, çünki orqan itirmir.

**Ulduz İBRAHİMOVA**

## Üç qat Avropa çempionu Rüstəm İmanzadə Tədris Cərrahiyyə Klinikasında müalicə alır

**Üç dəfə Avropa çempionu olmuş gənc atlet Rüstəm İmanzadə hazırda ATU-nun Tədris Cərrahiyyə Klinikasının Fizioterapiya və reabilitasiya şöbəsində müalicə alır.**



O, yarışların birində bədbəxt hadisəylə qarşılaşıb. Ştanqı başı üzərindən qaldırmaq istəyən idmançımızın sol qolu çıxıb. Müvazinətini saxlaya bilməyən idmançı ştanqı onurğa sütununun üstünə salıb. Bundan sonra idmançı ağır vəziyyətdə xəstəxanaya qaldırılıb. Rüstəm bir müddət Moskvada, daha sonra isə Türkiyədə müalicə alıb, ancaq bir o qədər də effektli təsirini görməyib.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının Fizioterapiya və Reabilitasiya şöbəsinin müdiri Nurlana Əliyeva bildirdi ki, fevral ayının 2-dən etibarən Rüstəm İmanzadənin müalicəsinə başlanılıb və mühim irəliləyişlər əldə olunub: "Demək olar ki, 1 il 6 aydır ki, xəstə əməliyyat keçirib. Tam hərəkətsiz, əlil arabasında gəzən bir xəstədir. Artıq son 1 aydır ki, biz müsbət nəticələr əldə etmişik. Aşağı ətraflarda hissiyat yaranıb".



Rüstəm İmanzadə bizimlə söhbətində müalicəsindən razı qaldığını bildirdi: "Moskvada, Türkiyədə müalicə almışam. Ancaq bu klinikada gözlə görüləcək effekt oldu. Əvvəl ayaqlarımda güc yox idi. Əzələlərim sıfır vəziyyətində idi. İndi isə şükürlər olsun ki, vəziyyətim müsbətə doğru gedir. Artıq bu gün yarım saat yerimişəm".

## Əcnəbi tələbələr Lahıca ekskursiyaya gedib



Bu günlərdə Azərbaycan Tibb Universitetinin (ATU) xarici tələbələri "Tərcümeyi-halımda Azərbaycanın yeri" adlı inşa müsabiqəsində iştirak ediblər. Beynəlxalq Bakı Tələbə Klubunun həyata keçirdiyi layihə çərçivəsində təşkil olunan müsabiqəsində ATU-da təhsil alan əcnəbi tələbələrin də böyük marağına səbəb olub. Müsabiqədə xüsusi aktivlik nümayiş etdirən 60-a yaxın əcnəbi müəllifin özünəməxsus adətləri, kaloriti ilə seçilən Lahıc qəsəbəsinə ekskursiya təşkil olunub.

Yarış iştirakçıları arasında olan 13 ATU tələbəsi daha çox fəallıq nümayiş etdirib.

Layihənin məqsədi Azərbaycanda təhsil alan əcnəbi gənclərin ölkəmiz haqqında təəssüratlarını genişləndirmək, onların tariximiz, milli-mədəni dəyərlərimiz haqqında biliklərini artırmaq, Azərbaycan haqqında məlumatları gələcəkdə öz ölkələrində paylaşmasına nail olmaqdan ibarətdir.

**ATU-nun mətbuat xidməti**

# Ramazan ayında ruhumuza necə enerji verək?

**Ramazan ayı ruhumuzun və cismimizin enerji alması və güclənməsi üçün gözəl fürsətdir. 11 aydan yığılmış qabarlar, kin-küdurət, nifrətdən qurtulmaq üçün bu ay qızıl fürsətdir. Bu, elə bir enerjivericidir ki, bir ay bizə bu enerjini verir və 11 ay bizə kifayət edir. Yəni, həqiqi ehtiyaclarımızı ödəyə bilir.**



İnsan iki hissədən ibarət olan bir canlıdır: ruhdan və bədəndən. Əgər insan hər ikisini inkişaf etdirə bilsə, dünya və axirət səadəti nəsibi olar. Əgər bu iki hissədən biri ayrı-ayrılıqda inkişaf edərsə və bir yerdə olmazsa, həqiqi səadətə çata bilməyəcəkdir.

İnsanın ruhu cismi kimi üç cür ola bilir: sağlam, xəstə və ölü. Ancaq əgər ruha enerji versək, onu pak və təharət halında saxlamış olarıq. Yəni bu zaman ruh bütün çirkinliklərdən və günahdan uzaq olmağa çalışacaqdır. Ruh kamala və qüdrətə çata bilir. Günahlar ruhu zəiflədir. Günah işlətməkdən özünü saxlayan ruh qüdrətə və əzəmətə çata bilər.

Bəs əgər ruhumuza enerji və qüvvə versək, hansı təsiri göstərəcəkdir?

1. Nəfsə hakim olmaq.

İnsan ibadət və mənəviyyat nəticəsində ruhunu gücləndirər və bu zaman insan öz nəfsinə hakim ola bilər. Bu zaman öz eyblərini də görməyə başlayar. Allah buyurur: "Kim Allahdan qorxsa, (Allah) onun üçün (çətinliklərdən) çıxış yolu qoyar". ("Təlaq" 2).

2. İradəsi güclənər.

O insan ki, öz nəfsinə hakimdir, iradəsi nəfsinin heyvani istəkləri qarşısında güclənər. "Ey iman gətirənlər, sizdən əvvəlkilərə yazıldığı kimi sizə (də) oruc yazıldı və qərara alındı, (ki,) bəlkə (ruhunuz qüvvətlənsin və nəfsi istəklərdən) çəkinəsiniz". ("Bəqərə" 183).

3. Xəyal qüvvəsinə hakim olar.

Bizim zehnimiz quş kimi oradan-ora həmişə uçmaqdadır. Xəyal qüvvəsi qəlb hüzurunu bizdən alar. Ona görə də namaz zamanı diqqətimizi cəmləyə bilmərik. Bu bizim zəif olduğumuzu göstərir. Ancaq Allah yolunun yolçuları daima öz xəyal qüvvələrinə hakimdirlər. O zaman ki, ruhları göylərdə seyr etmək istəyər, bu qüvvə öz oyunçuluğu ilə onlara mane ola bilməz.

4. Cisminə rəhbərlik edə bilər.

Bu zaman insan bədəni tamamilə ruhun rəhbərliyi və kontrolu altında olar.

5. Təbiətə rəhbərlik edə bilir.

Təbiətin özü insan iradəsinin nüfuzu altında olar. Peyğəmbərlərin (ə), övliyaların möcüzə və kəraməti də belə olmuşdur. Allah Təala Qurani-Kərimdə bəzi bəndələrinin kainatı necə fəth etdiyinə işarə etmişdir: "Beləliklə, Biz küləyi ona ram etdik. Külək onun əmri ilə mülayimliklə onun istədiyi yerə gedirdi". ("Sad" 36).

Ruha enerji vermək dedikdə yəni, ibadət etmək, dua və istiğfar etmək, Allaha yaxınşacaq işlər görmək və fitrətimizin əvvəlki pak halına qayıtmaq deməkdir. Bunun üçün də Ramazan ayı ən gözəl fürsətdir. Çünki bu ayda bir etdiyimiz on hesab edilir və bu da ruhumuza daha çox enerji qazandırır. Allah bəşəri hidayət edən rəhmət kitabını Ramazan ayında Peyğəmbərin (s) qəlbinə nazil etmişdir. Bu ayı Allaha qoşulmaq ayı qərar vermişdir. Bu ayda ibadət etmək, haramdan uzaq olmaq və halala yaxın olmaq nəticəsində insan öz Məbdəsinə, Allahına yaxınlaşar. Ruhu, iradəni gücləndirməklə yanaşı, ruhumuzdakı süstlüyü də aradan qaldırır və cismimizi qüvvətləndirər: "Ramazan ayı insanların bələdçisi, aşkar hidayət dəlillərinə malik və (haqq ilə batili bir-birindən) ayıran Qur'anın nazil olduğu bir aydır". ("Bəqərə" 185).

Bu ayda behiştin qapıları açılar və cəhənnəmin qapıları bağlanar. Şeytanı zəncirə vurarlar. Zaman insana yardım edər ki, səhərdən axşama qədər insanın tək hədəfi Allahla olsun və Ona çatmaq olsun. Peyğəmbərimiz (s) öz "Şəbaniyyə" xütbəsində Ramazan ayının fəziləti haqqında belə buyurmuşdur: "Ey Allahın bəndələri! Bərəkətli və rəhmətli Allah ayı sizə üz tutmuşdur. Bu ay Allah yanında ən gözəl aylardandır. Gündüzləri ən gözəl gündüzlər, gecələri gözəl gecələr və saatları ən gözəl saatlardır. Allahın qonaqlığına çağırılmısınız. Kəramət əhlindən olmusunuz. Bu ayda nəfsləriniz sizi təsbih edər, yuxularınız ibadətdir, əməlləriniz və dualarınız qəbul olar".

Bu aydan ən gözəl şəkildə bəhrələnmək o deməkdir ki, istiğfar edək, tövbə edək, Quran oxuyaq, başqalarına yaxşılıq edək, sileyi-rəhm edək.

Ona görə də bu aydakı fürsətləri əldən verməyək. Bu ayın axırına qədər ibadət müsabiqəsində qələbə çalanlardan olaq.

Həzrət Peyğəmbər (s) buyurur: "Səmanın qapıları Ramazan ayının birinci gecəsi açılar. Axırıncı gecəsinə qədər də bağlanmaz. Ey insanlar! Əgər kimsə bu ayda Qurandan bir ayə oxuyarsa, savabı Ramazandan qeyri vaxtlarda xətm edilən bir Quran qədərdir".

İmam Sadiq (ə) buyurur: "Hər kim Ramazan ayında sədəqə verər, Allah 70 növ bəlanı ondan uzaq edər".

# Orucu isti havada necə tutaq?

Artıq bir neçə ildir ki, mübarək Ramazan ayı bir sıra ölkələrdə olduğu kimi, vətənimizdə də yay aylarına təsadüf edir.

Belə olan halda oruc tutmaq bir az da çətinləşir. Buna həm havanın daha isti olması, həm də günün daha uzun olması təsir edir. Qarşılamağa hazırlaşdığımız Ramazan ayının isə iyun-iyul ayına təsadüf edəcəyindən, bu il oruc tutmaqla bağlı narahatlıq bir az da artır. Bunu nəzərə alan "Deyerler.org" bu mövzuda vətəndaşlarımıza xeyirli ola biləcək məlumatları mütəmadi dərc edir.



Türkiyənin Memorial Xəstəxanası isti havada oruc tutmaqla bağlı araşdırma təqdim edib. Xəstəxananın Qidalanma şöbəsinin həkimi Yeşim Çelik müsəlmanlara məsləhətlər verib. Onlardan ən önəmlilərini diqqətinizə çatdırırıq:



- oruc tutan insalar mütləq imsaq etsinlər. Havanın isti olması iştahanın azalmasına səbəb olur, amma sübh vaxtı qidalanmaq çox önəmlidir;
- oruc tutarkən yumurta yeyin və süd için. Çünki yumurtada kalori miqdarı çoxdur və yumurta insanı daha uzun müddət tox saxlayır. Süd isə insanın həm maye ehtiyacını, həm də qida ehtiyacını ödəmək xüsusiyyətinə malikdir;
- oruc tutuanlar imsaq vaxtı 2-3 ədəd qoz yesə, bu, onları daha çox tox saxlayar;
- imsaq vaxtı meyvə ilə qidalanmaq çox önəmlidir. Xüsusən də sulu meyvələr insanın gün ərzində suzuluğunun qarşısını almağa kömək edər. Bunlara əsasən qarpız, yemiş, üzüm, şaftalı kimi meyvələr daxildir;
- əksər insanların bildiyi bir qanun var ki, iftar vaxtı birdən-birə çoxlu qida qəbul etmək olmaz. Onun əvəzinə bir dilim çörəklə sulu bir xörək yemək sağlamlıq baxımından daha faydalıdır. Bundan yalnız 15-20 dəqiqə sonra qidalanmağa davam etmək olar. Əks təqdirdə təzyiqin qalxması və mədə ağrıları yarana bilər;
- gün ərzində susuzuluğu çox hiss etməmək üçün iftardan imsaqadək hər bir saatda 1-2 səkan su içmək faydalıdır.

Həkim həmçinin xəstə insanlara, əsasən, böyrək və qaraciyər, şəkər və ürək-damar xəstələrinə daha diqqətli olmağı, Ramazan ayı başlamazdan öncə həkimə müraciət etməyi və orucun onlar üçün təhlükəli olub-olmayacağını öyrənməli olduqlarını bildirib.

**Hazırladı: Mirağa CAVADOV**

# Günəş işığının sağlam həyat üçün yeni faydaları kəşf edildi

**Alimlər Günəşin D vitaminindən başqa yeni bir faydasını da kəşf ediblər.**

Günəş şüalarının ürək-damar sistemini qorumaqda və özümüzü yaxşı hiss etməyimizi təmin edən beyin kerotinin istehsalında mühüm rolu olduğu aşkarlanıb.

Mütəxəssislər günəş işığına həddindən artıq qalmanın ölümcül dəri xərçənginə səbəb ola biləcəyini bildirsələr də, digər tərəfdən də müsbət tərəflərini kəşf etməyə davam edirlər.

Aparılan son araşdırma nəticəsində, bu dəfə D vitaminlərinin deyil, günəş şüalarının digər təsirləri müşahidə olunub. Araşdırma zamanı, xüsusilə azot oksidinin həyati əhəmiyyətə malik olduğu nümayiş olunub.

Alimlər günəş şüalarının ürək-damar sistemimizin müdafiəsində və özümüzü yaxşı hiss etməyimizi təmin edən beyində kerotinin istehsalında mühüm



bir rolu olduğunu ortaya çıxarıb.

Araşdırmalar 20 ildir günəş vannası qəbul edən, təxminən 30 min isveçli qadının məlumat sənədlərindəki göstəricilərin fonunda müəyyən olunub.

İsveçin paytaxtı Stokholmdakı Karolinska İnstitutu günəşdən qaçmağın siqaret çəkmək qədər zərərli olduğu qənaətinə gəlib.

Günəş şüalarına həddindən artıq məruz qalan 100 qadından 1.5-nin 20 il ərzində dünyasını dəyişdiyi, bunun müqabilində həmin dövr ərzində günəşdən qorunan 100 qadından 3-nün öldüyü vurğulanıb.

Bu göstəricilər, günəş şüalarına daha çox məruz qalan insanların ürək xəstəliklərinə qarşı daha müqavimətli olduğunu və xərçənglə əlaqəli olmayan xəstəliklərə daha az yoluxduğunu ortaya çıxarıb.

Bunun səbəbi təzyiqi salan və qan hüceyrələrinin genişlənməsini təmin edən azot oksidinin günəş şüalarıyla sərbəst qalmasına bağlanır.

Azot oksidinin faydası bununla da məhdudlaşmır. Kifayət səviyyədə nitrat oksidinin qan dövranında olmadığı müddətdə insulinin funksiyasının reallaşmamasına, bunun da diabetə səbəb olduğu qeyd edilir.

# Qan Donorları Assosiasiyası Ümumdünya Qan Donoru Gününü qeyd edib

**Ölkəmizdə qan donorluğunun inkişafında yaxından iştirak edən Qan Donorları Assosiasiyası hər il olduğu kimi, bu il də 14 iyun – Ümumdünya Qan Donoru Günü ilə əlaqədar qan donorlarının iştirakı ilə tədbir keçirib.**

Assosiasiyanın mətbuat katibliyindən AZƏRTAC-a bildirilib ki, Ümumdünya Qan Donoru Gününün qeyd olunmasında əsas məqsəd qanvermənin əhəmiyyəti barədə insanları məlumatlandırmaq və daha çox insanı könüllü donorluğa həvəsləndirməkdir. Tədbirdə çıxış edən Qan Donorları Assosiasiyasının sədri Fuad Əsgərov deyib ki, bu müqəddəs missiyanı həyata keçirməkdə illər ərzində fəaliyyətimizə dəstək olanlar arasında "Park Bulvar" xüsusi xidmətləri ilə seçilir. "Park Bulvar" hər zaman qan donorluğunun inkişafında yaxından iştirak edərək övladlarımızın sağlam gələcəyi üçün bizimlə birgə mübarizə aparıb.




Qeyd edilib ki, müasir təbabətdə həkimlərin əlində çoxlu müalicə vasitələri olmasına baxmayaraq, ən ağır vəziyyətlərdə xəstələrin həyatlarının xilas edilməsi üçün donor qanı əvəzsiz rol oynayır. Müxtəlif travmalar, mürəkkəb cərrahiyyə əməliyyatları və doğuşlar zamanı qan itirmələrdə, xroniki qan azlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji və daxili orqanların xəstəliklərində qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Bu isə qana olan tələbatı artırır. Bununla əlaqədar olan məsələlərin həllində qan donorluğunun, xüsusən təmənnasız donorluğun böyük əhəmiyyəti vardır.

Tədbirin sonunda öz qanını təmənnasız bağışlayan bir qrup şəxsə Assosiasiya və "Park Bulvar" tərəfindən təşəkkürnamə və hədiyyələr təqdim olunub.

# Əlcəzairdə feysbukdan asılı insanların müalicəsi üçün klinika açılıb

**Əlcəzairdə açılan özəl klinikada feysbukdan asılı xəstələrə sağalmaq təklif olunur. Bu tibb ocağı dünyada üçüncüdür. Belə klinikalar Çində və Cənubi Koreyada artıq fəaliyyət göstərir.**




AZƏRTAC nigeriatoday.ng saytına istinadən xəbər verir ki, klinikada əvvəllər siqaret, narkotik və alkoqol asılılığı olan xəstələri müalicə edən mütəxəssislər çalışırlar. Klinikanın rəhbəri Rauf Boqofa izah edir ki, feysbukdan və digər sosial şəbəkələrdən asılılıq narkomaniya ilə müqayisədə daha ağır nəticələrə gətirib çıxara bilər. İnsanları müalicə etmək üçün həkimlər şəbəkə istifadəçilərinə virtual dünyada deyil, real dünyada yaşamağa yardım edəcək xüsusi proqram hazırlayıblar. Yeri gəlmişkən, sosial şəbəkələrdən tam imtina yəqin ki, alınmayacaq. Bu yaxınlarda Cons Hopkins Universitetinin alimləri həkimlərlə ünsiyyətdə olan pasiyentlər barədə məlumat toplayıblar. Məlum olub ki, rəyi soruşulan pasiyentlərin yarıdan çoxu tibb işçiləri ilə ünsiyyət zamanı sosial şəbəkə və ya elektron poçtdan istifadə edib. Bir çox həkimlər bu üsulu faydasız hesab edirlər.

**Oxucularımızın yaradıcılığı**

# TƏSƏLLİ

*Vətən, torpaq yolunda canlarını fəda edən bütün şəhid analarına ithaf edirəm*

Bütün analar kimi sən də oğul böyütdün,
Gecələr səhərədək Allaha dua etdin.
– İlahi, tək balamı sən özün hifz et, dedin,
Yerin, göyün bəlasın ondan uzaq et dedin ...
Sən hardan biləydin ki, yer–göy bəlası deyil,
Erməni bəlasından,
Çörəyimizi yeyən nankor "dost" davasından
O, uzaq olmayacaq, oğlun şəhid olacaq?!..

Sən hardan biləydin ki,
Özü öz ayağıyla, ata yurdun tərk edib
Hərbi xidmətə gedən,
O mərd, cəngavər oğlun
Günlərin bir günündə, qərənfillər içində,
Çiyinlərdə gələcək?!

Mən sənə nə söyləyim?
Necə təsəlli verim?
Axı mən də bilirəm, o sənin mərd oğlundu,
Bir gecədə ağaran saçında dən oğlundu.
Ağlama söyləmirəm,
Ancaq bunu deyirəm,
– O getdi ki, yurdumuz
Bir də düşmən görməsin.
O getdi ki, körpələr
Atasız böyüməsin.

O getdi ki, gəlinlər
Bir də ərsiz qalmasın.
Analar oğul deyib,
Kədərdən ağlamasın.

Getdi ki, Xocalıda
O qiyamət gecəsi,
Qırılan körpələrin,
Şaxtada donub qalmış
Dəhşətli mənzərəsi,
Yaralı anaların
Tük ürpədən naləsi,
Heç vaxt unudulmasın,
Tarixlərə yazılsın.

O getdi ki, Şuşada
Yenə məclis qurulsun.
Üzeyirin, Bülbülün,
Xan qızı Natəvanın
Bizdən küsmüş ruhları
Evlərinə qayıtsın ...

O getdi ki, heç bir vaxt
Vətənin göylərinə
Qara bulud çökməsin.
O getdi ki, heç bir gənc
Özü kimi dünyadan
Bir də nakam köçməsin!
Bir də nakam köçməsin!



**İradə Rza**
*Xarici dillər kafedrasının müəllimi*

# Yetişmiş pomidor damarlara yaxşı təsir göstərir

Nə yaxşı ki, tərkibində likopin adlı aktiv maddənin yüksək konsentrasiyası olan pomidor süfrələrimizin bəzəyidir. Alimlər sübuta yetiriblər ki, likopin piqmentinin məhz bu effekti sayəsində sağlam adamlarda damar patologiyalarının inkişafı riski azalır. AZƏRTAC "mednews.info" saytına istinadla xəbər verir ki, ürək xəstəliklərindən əziyyət çəkən insanlar likopin qəbulundan sonra vəziyyətlərinin xeyli yaxşılaşdığını müşahidə ediblər.



Alimlərin apardığı eksperiment zamanı məlum olub ki, likopin xəstəliklər nəticəsində zədələnmiş damarlara yaxşı təsir göstərir. Eksperimentdə hər biri 36 nəfərdən ibarət 2 qrup iştirak edib. Birinci qrupa bu və ya digər ürək–damar sistemi xəstəliklərindən əziyyət çəkən adamlar daxil olub. Onlara xolesterini azaldan preparatlar verilib. İkinci qrupun nümayəndələri tamamilə sağlam olublar.

Təcrübə nəticəsində qeydə alınıb ki, likopin qəbul edən pasiyentlərdə damar keçiriciliyi 53 faiz yaxşılaşıb. Beləliklə, alimlər sübuta yetiriblər ki, bu piqment damar sisteminin zədələnmiş hissələrini bərpa edir.

Alimlər Aralıq dənizi pəhrizinin səmərəliliyini bu mətbəxdə tərkibində likopin piqmenti olan pomidorlara geniş yer verilməsi ilə izah edirlər. Daim pomidor yeyən adamlar ürək–damar patologiyalarından xeyli az əziyyət çəkirlər.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi Milli Kitabxananın əməkdaşı Məmməd Məmmədova əzizi

**Məhəmməd həkimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın dosenti Xuraman xanıma qardaşı

**Elman müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın assistenti t.e.n. Elnarə Qəzvinovaya oğlu

**Tuncay Qəmbərovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ATU-nun Tədris Terapevtik Klinikasının II pediatriya şöbəsinin əməkdaşları və II uşaq xəstəlikləri kafedrasının kollektivi kafedranın dosenti Tahirə Pənahovaya anası

**Natiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağız və üz, çənə cərrahiyyəsi kafedrasının əməkdaşları kafedranın professoru Teymur Babayevə oğlu

**Samir Babayevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Latın dili, farmakologiya, əczaçılıq texnologiyası və idarəçiliyi və uşaq - yeniyetmələr və əmək gigiyenası kafedralarının əməkdaşları latın dili kafedrasının müdiri Bahadur Hüseynova qardaşı

**Adil müəllimin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rezidentura şöbəsinin kollektivi iş yoldaşları Səriyyə xanıma atası

**Tofiq Əlizadənin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Latın dili kafedrasının əməkdaşları kafedranın baş müəllimi Zemfira xanıma anası

**Zərifə xanımın**

vəfatından kədərlənd iklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin VI kurs, $365^a$ qrup tələbəsi Ağamov Mirzə Eldar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Əczaçılıq fakültəsinin III kurs, $880^b$ qrup tələbəsi Özel Bişar Mehmetemin oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Stomatologiya fakültəsinin II kurs, $724^b$ qrup tələbəsi Hamidreza Karamishamloonun adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Cəfərov Hafiz Teymur oğluna 1984-cü ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

I müalicə-profilaktika fakültəsinin VI kurs, $166^b$ qrup tələbəsi Qənbərli Gündüz Alim oğlunun adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

I müalicə-profilaktika fakültəsinin I kurs, $3^b$ qrup tələbəsi Celbiş Alparslan Osman oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

I müalicə-profilaktika fakültəsinin III kurs, $79^a$ qrup tələbəsi Gümüş Rehber Şemsettin oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Hüseynov Ramiz Hüseyn oğlunun adına "Texnikabank" ASC tərəfindən 5 sentyabr 2008-ci ildə verilmiş 335 saylı qəbz itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^c$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@amu.edu.az**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 315